# *PEDAQOJİ ELMLƏR*

## Heydər Əliyevin irsi Azərbaycan təhsilinin inkişaf mənbəyi kimi

**Xədicə Cahangirli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** xcli@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. İ.H. Cəbrayılov,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, təhsil, təhsilə qayğı, bilik, elm

**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, образование, уход за образованием, знание, наука

**Key words:** Heydar Aliyev, Azerbaijan, education, care for education, knowledge, science

Bütün bəşəriyyət tarix boyu təcrübə sınaqlarından keçərək müasir dövrümüzə kimi insanlıq yolunda əmək sərf etmiş, həyatı daha gözəl, mənalı yaşamaq, asanlaşdırmaq, sərfəli etmək üçün çalışmışdır. Cəmiyyətin inkişafı məhz qədimdən əldə edilmiş biliklərdən başlanğıc götürərək öz yolunu indiyə kimi davam etdirmişdir. Tədqiqatlar göstərir ki, yer üzündə hələ ilk insan nəsli yarandığı vaxtdan mübarizə meydanına çevrilən həyatda əldə edilən uğurlar daha çox ağıl və idrakın məhsulu olan bilik vasitəsilə bacarıq və vərdişlər sayəsində qazanılmışdır. Canlılar aləmində yeganə şüurlu varlıq olan insanın dünyanı dəyişməyə qadir qüvvə kimi formalaşması da onun zəruri bilikləri, bacarıq və səriştələri tətbiq etmək qabiliyyətinə malik olması ilə bağlıdır. Məlumdur ki, sistemləşdirilmiş bilik və bacarıqların məcmusunu ifadə edən təhsil bəşəri dəyər kimi birdən-birə formalaşmamışdır. Cəmiyyət təşəkkül tapıb inkişaf etdikcə sosial-iqtisadi tələblərin yerinə yetirilməsində müəyyən bilik və həyati bacarıqların əldə olunmasının vacibliyi tədricən müxtəlif istiqamətlər üzrə xüsusi təlim verən və ayrı-ayrı şəxslərin adı ilə adlanan məktəblərin təşkilinə gətirib çıxardı. Bu məktəblərdə həyata keçirilən təlimlər isə təlim-tərbiyə, yəni təhsil anlayışının yaranmasının əsasını qoydu.

Elmi araşdırmalardan aydın olur ki, bəşər sivilizasiyasının təşəkkülü, formalaşması və inkişafı bilavasitə təhsillə bağlıdır. Dünyada ilk insan məskənlərindən biri olan Azərbaycanda pedaqoji fikrin, təlim-tərbiyə ənənələrinin yaranması tarixi min illər bundan əvvələ aiddir. Hələ on əsr bundan əvvəl yazılı abidəsi mövcud olmuş xalqımızın maarifpərvər, elm və təhsilyönümlü xarakteri təkzibolunmaz dəlillərlə sübuta yetirilmişdir. Hələ eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda salınmış xüsusi memarlıq üslubuna malik şəhərlər, mədəni abidələr və kommunikasiya vasitələri bu gün də mühəndis-texniki təfəkkürün nadir nümunələri kimi diqqəti cəlb edir. Bütün bunlar onları yaradan insanların dövrünə görə fundamental təhsil almasından, intellektual səviyyəsindən, əqli kamillik dərəcəsindən xəbər verir.

Azərbaycan təhsil tarixi, pedaqoji fikir tarixi milli ənənələr üzərində inkişaf etmiş və getdikcə zənginləşmişdir. Tədqiqatlar göstərir ki, sovet hakimiyyəti illərində bütövlükdə

Azərbaycanın, eləcə də ölkə təhsilinin, xüsusilə ümumi təhsilin vüsətli inkişaf tərəqqisi Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu dahi şəxsiyyətin fəaliyyətinə, həyat yoluna nəzər salanda aydın görürük ki, Ümummilli lider Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin görkəmli siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Ulu öndər Heydər Əliyev yaşadığı bütün həyatı boyu xalqını, vətənini düşünmüş, böyüyən nəsillərin milli təfəkkürünün formalaşdırılmasına çalışmışdır.

Azərbaycanın müstəqilliyinin əldə olunması, möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğu bilavasitə ulu öndərin adı ilə bağlıdır. Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və möhtəşəm fəaliyyətində təhsil məsələləri daim xüsusi yer tutmuşdur. Ulu öndərimiz ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, cəmiyyətdə təsir gücünü həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Ümummilli liderimizin 1993-cü ildə Azərbaycanın rəhbərliyinə yenidən gəlişi ilə, təhsil sahəsində də yeniliyin yeni ictimai – siyasi, iqtisadi quruluş yeni prinsiplərin tətbiqini tələb edir. Heydər Əliyev təhsil sisteminin təkmilləşdirilməsi orta ümumtəhsil məktəblərinin maddi texniki bazasının möhkəmləndirilməsi, gənc istedadlara dövlət qayğısı, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqındakı fərman və sərəncamlarının, təhsil işçilərində söylədiyi nitqlərinin, əxlaqi – mənəvi dövlətçilik, azərbaycançılıq tərbiyəsinin, Azərbaycan təhsilinin Ulu öndər Heydər Əliyev mərhələsi tarixi müasir əhəmiyyətli klassikləşmiş məktəbdir. Ümummilli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə yuxarıda qeyd etdiyimiz kimi, təhsilin inkişafına böyük əhəmiyyət verirdi.

Ötən əsrin 70-80-ci illərində böyük tarixi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika Elmlər Akademiyasının Elmi-Tədqiqat İnstitutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".

Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən praktika sistemli tədbirlər həyata keçirmişdir. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider Heydər Əliyev daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir", – deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür. Azərbaycançılıq milli-mənəvi dəyəri Heydər Əliyev nümunəsində özünün geniş həllini tapdı. O, deyirdi: "Öz dilini bilməyən, öz dilini sevməyən, öz tarixini yaxşı bilə bilməz.Azərbaycan ədəbiyyatını, ana

dilini bilməyən gənc Nizamini oxuya bilməz. Füzulini oxuya bilməz. Sabiri oxuya bilməz. Əgər onları oxuya bilməsə, o tariximizi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, Vətənpərvər olmayacaq, onda milli vətənpərvər duyğuları, hissləri olmayacaqdı."

Ümummilli lider Heydər Əliyev ölkəmizin müstəqil dövlət sahibi, öz taleyinin sahibi olmaq hissini yaşayaraq sahiblik işlərinə yiyələnməsinə nail olurdu. Vətən deyilən müqəddəs torpağın yeraltı, yerüstü sərvətlərini insanlıqla tutulan şərəfin, namus və qeyrətin sahibi olan insanın şəxsiyyətli, azadlıqsevər, mərd, cəsarətli olacağına şübhə yoxdur. Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim tarixini, zəngin ədəbiyyatını mükəmməl bilməlidir. Təhsilə millətin gələcəyi kimi baxan Ulu öndər qeyd edirdi ki, - təhsil mürəkkəb bir sahədir.

Ümummili lider Heydər Əliyev Azərbaycan dövlətinin əbədiliyinin əsasını, idarəetmə sisteminin yaradılmasının əsasını qoymuşdu. Ulu öndər deyirdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarını təmin edib."

Ümummilli lider Heydər Əliyev həm də ədalətli bir dövlət başçısı idi. Məhz özü ədalətli adam olduğu üçün hadisələrə də bu konteksdən yanaşmağı bacarır, dünya ictimaiyyətini, beynəlxalq qurumları və s. ölkəmizin mübtəla olduğu münaqişənin həllində ədalətli olmağa çağırırdı. O, sərt olmağı bacarırdı, insanları səhvlərinə görə cəzalandırırdı, ancaq heç vaxt ədalətsiz qərar qəbul etmirdi. Onun cəzası vicdan və ədalət kateqoriyalarının həmişə, hər yerdə və hər bir şəraitdə prinsipial qələbəsini təmin etmək kimi nəcib və sosial-mənəvi missiyaya hesablanmışdı.

Bütün bunlar Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə də açıq-aşkar hiss edilirdi. Ulu öndərin öz sözləri ilə desək: "Dövlət inamsızlıq üzərində qurula bilər, ədalətsizlik üzərində yox". Dövlətimiz digər sahələrdə olduğu kimi, təhsil sahəsində də milliyyət, din, sosial mənsubiyyət, daxil olduğu sosial qrup və digər cəhətlərə görə vətəndaşlar arasında heç bir ayrı-seçkilik qoymur və bu sahədə hamının bərabərhüquqlu olduğunu qəbul edir. Bu da onu göstərir ki, vətəndaş təhsili eyni zamanda hər bir vətəndaşın qarşısında bir sıra vəzifələr qoyur və onların yerinə yetirilməsi vətəndaşlardan tələb olunur.

Bunlar: Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etmək, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləmək, vətənə sədaqətli olmaq, öz vəzifələrini layiqincə yerinə yetirməyə məsuliyyət daşımaq, respublikamızın dövlət rəmzlərinə, bayrağına, gerbinə və himninə hörmət etmək, vətəni müdafiə etmək və hərbi xidmət keçmək, tarix və mədəniyyət abidələrini qorumaq, ətraf mühiti qorumaq, Respublika Konstitusiyasına və qanunlarına zidd vəzifələrin icrasına məcbur etməmək, Konstitusiya və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və vəzifələrin yerinə yetirilməməsi zamanı məsuliyyət daşımaqdan ibarətdir. Bunlar həm də vətəndaş təhsilinin hər bir vətəndaşa aşıladığı keyfiyyətlərin məzmun və mahiyyətini təşkil edir.

Ümumtəhsil məktəblərində qazanılan biliklərin mahiyyətini, məzmununu yüksək qiymətləndirən ulu öndər hər bir insanın həyat mövqeyinin formalaşmasında, cəmiyyətdə öz yerini tutmasında orta təhsilin çox böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Ulu öndərimizin aşağıdakı dəyərli fikirləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir: "İnsan təhsilinin əsasını orta məktəbdə alır... Əgər onun fundamental, köklü orta təhsili varsa, o,

cəmiyyətdə özünə yer tapacaq, çalışacaq, ...cəmiyyətimizin şüurlu üzvü olacaqdır".

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşmişdir. Ulu öndər müstəqil dövlətimizin təhsil sisteminin qarşısında duran böyük işlərə diqqəti yönəldərək deyirdi: "Bu gün biz Azərbaycanda bütün təhsilin – orta, texniki peşə, orta ixtisas məktəblərinin və ali məktəblərin işinin yaxşılaşdırılması sahəsində ciddi tədbirlər görməliyik. Mən hesab edirəm ki, bunlar həm qəbul olunacaq təhsil qanununda, həm də təhsil islahatı ilə əlaqədar qəbul ediləcək qanunda və qərarlarda öz əksini tapacaqdır".

Qeyd etməliyik ki, bu məsələlər ulu öndərin təşəbbüsü ilə hazırlanan və 2009-cu ildə qəbul edilən Təhsil Qanununda əksini tapmışdır. Ümummilli lider haqlı olaraq vurğulayırdı ki: "İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin". Təqdirəlayiq haldır ki, bu gün Ulu öndərin ideyaları ölkə Prezdenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir və yeni tarixi şəraitə uyğun konseptual baxışlarla daha da inkişaf etdirilir.

Qeyd etməliyik ki, bir məqalə çərçivəsində dahi şəxsiyyət Heydər Əliyevin təhsillə bağlı proqram müddəalarının mahiyyətini, bunlarda ifadə olunmuş konseptual ideyaların məna tutumu baxımından miqyasını açıqlamaq və təhlil edib müvafiq nəticələr çıxarmaq, onun ölməz ideyalarının və əməllərinin müasir şəraitdə ölkəmizdə necə vüsətlə həyata keçirildiyini açıb göstərmək qeyri-mümkündür. Heydər Əliyev irsi hər birimiz üçün, həm də gələcək nəsillər üçün ərməğan etdiyi zəngin, qiymətli bir xəzinədir. İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin parlaq zəkasının məhsulu olan nadir fikir inciləri uğurlu gələcəyə gedən yollarımızda əbədi məşəl kimi daim şölələnəcəkdir.

**Məqalənin aktuallığı**. Tədqiqatlar göstərir ki, cəmiyyətin inkişafında təhsilin rolu böyükdür. Məhz buna görə ulu öndər Heydər Əliyev təhsilə həmişə xüsusi diqqət və qayğı göstərmişdir. Bu məsələlərin tədqiqi Azərbaycan təhsilinin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da aktuallıq kəsb edir.

**Məqalənin elmi əhəmiyyəti**. Elmi yenilik ondan ibarətdir ki, məqalədə əks edilmiş fikirlər, əldə olunmuş nəticələr Azərbaycan təhsilinin inkişaf tarixinin öyrənilməsinə müəyyən töhfələr verə bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən alınan elmi nəticələr bu mövzu ilə bağlı araşdırma aparanlar, pedaqogika, tarix və digər fənn müəllimləri üçün əhəmiyyətli ola bilər.

## Ədəbiyyat

1. Heydər Əliyev. Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı: Müəllim, 2008.
2. Heydər Əliyev. Təhsil millətin gələcəyidir / Tərtib edənlər: M.Mərdanov və Ə. Quliyev. Bakı: Təhsil, 2002.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. VIII cild. Bakı, 1998.
4. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq. "Azərbaycan" qəz., 1996, 6 fevral.
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq, 2009.

**X. Джахангирли**

## Наследие Гейдара Алиева как источник развитии Азербайджанской образовании

## Резюме

В этой статье говориться о внимании и заботе великого лидера Г.А.Алиева в области образования. Развитие образования в Азербайджане основывается на наследии всенародного лидера Г.А. Алиева. Отмечается что благодаря исключительной роли Г.А. Алиева, образование в Азербайджане достигло великого успеха. Методическими основами для образования являются концептуальные взгляды великого лидера Г.А. Алиева.

**X. Ghahangirli**

## As development source of the Heydar Aliyev's Azerbaijani education

## Summary

In this article there is shown thoroughness and care of Great Leader Heydar Aliyev for education of Azerbaijan. By way of development of knowledge the struggle of National leader H.A. Aliyev’s heritage is a good substantiate. Here’s noted that education of Azerbaijan has been succeeded by the exceptional service of H.A. Aliyev. Conceptual views of Great Leader H. A. Aliyev has been accepted as methodological bases.

**Redaksiyaya daxil olub:** 13.02.2018